# PROF. DR. ABDULLA SOFİYEV
# TERCÜMEYİ HAL



Abdulla Heydər oğlu Sofiyev 1 iyul 1961-ci ildə Qazax rayonu Daş Salahlı kəndində anadan olmuşdur.

1976-1980-cı illərdə Azərbaycan Pedagoji Universitetinin riyaziyyat fakültəsində təhsil almışdır.

1985-1996-cı illərdə Azərbaycan Texniki Universitetinin "Nəzəri Mexanika" kafedrasının aspirantı, assistenti, baş müəllimi və dosenti vəsifələrində işləmişdir.

1996-2005-ci illərdə Türkiyə Cumhuriyyəti Ondoqquz Mayıs və Süleyman Dəmirəl Universitetlərinin İnşaat Mühəndisliyi Bölümü Mexanika kafedrasında dosent vəzifəsində işləmişdir.

**2005-ci ilin sentyabr ayından 2022-ci ilin Oktyabr ayına qədər Süleyman Dəmirəl Universitetinin İnşaat Mühəndisliyi Bölümü Mexanika kafedrasının professoru ve müdürü olmuşdur.**

**2022-ci ilin Oktyabr ayından İstanbul Ticarət Üniversiteti Matematik Bölümünde çalışmaqdadır.**

**2007-cı ildən üzvü olduğu Nəzəri və Tətbiqi Mexanika Türk Milli Komitəsinin 2016-cı ildən Sədr Müavinidir.**

**2009 və 2014-cü illərdə Süleyman Dəmirəl Universitetində Texnika sahəsində "Bilim Texnologiya" Birinci Mükafatlarına layiq görülmüşdür**.

2014-cü ildə mötəbər Beynəlxalq Jurnalların (SCI) ən yaxşı 10 referenti arasında yer almışdır.

2003 və 2004-cü illərdə dünyada ilk dəfə funksional dərəcələnmiş materiallardan hazırlanmış silindr və konus şəklindəki örtüklərin dinamik stabilitə probleminin həllinə nail olmuşdur.

2006 - 2017-ci illər arasında fərqli nəzəriyyələrdən istifadə edərək yeni nəsil multifonksional kompozitlərdən hazırlanmış təbəqəli və sendviç levha və örtüklərin bütöv mühitdə stabilitə və titrəşim problemlərinin həll yolunu tapmışdır. Bu nəticələr peyklərdə, roketlərdə, kosmik gəmilərdə və atom reaktorlarında geniş istifadə edilməkdədir.

2018-ci ildən başlayaraq müasir texnikanın xüsusi ilə də müdafiə sənayesinin ən vacib problemlərindən biri olan **nanokompozit** materyallardan hazırlanmış çoxtəbəqəli konstruksiyaların resonans durumunda xətti olmayan məcburi titrəşim məsələlərinin həllinə nail olmuşdur.

**2019 ve 2020-ci illərdə Stenford Universitetinin tərtib etdiyi dünyanın ən nüfuzlu elm adamları siyahısına daxil edilmiştir.**

270' dan çox fundamental elmi məqaləsi çeşitli mühəndislik, nanomaterial, kompozitlər, tətbiqi riyaziyat və fizika jurnallarında çap edilmişdir. Bu məqalələrdən 170' dan çoxu mötəbər Beynəlxalq (SCI) Jurnallarda çap edilmişdir. Bu məqalələrdən **96 ədədi Q1, 34 ədədi Q2, 22 ədədi Q3 və 10 ədədi Q4** reytinqli jurnallarda çap edilmiştir. Bu məqalələrdən **44'ündə tək müəllif**, **81 məqalədə isə aparıcı (birinci) müəllifdir.**

Prof. Abdulla Sofiyevin SCOPUS'da məqalələrin həm məhsuldarlığına həm də sitat təsirinə görə müəllifin səviyyəsini ölçən **"h"-indeksi 43**-dir.

Bir çox xarici ölkədə Beynəlxalq Konfransların plenar iclaslarında çıxış etmiş və seminarlar vermişdir.

50 dən çox Beynəlxalq (SCI) Mühəndislik ve tətbiqi riyaziyyat jurnallarında referentlik etməkdədir. Bir neçə mötəbər Beynəlxalq Mexanika jurnallarının redaksiya heyətinin üzvü olmuş ve olmaqdadır.

**Elmi rəhbərliyi altında 13 magistr və 5 Doktor yetişmişdir.**

Türkiyənin bir neçə Universitetində və **Almanya Karlsruhe Universiteti** Texniki Mexanika İnstitutunda elmi proyektlərdə iştirak və rəhbərlik etmiş, "Türkiye Bilimsel və Teknolojik Araştırma Kurumu", qısa adı **TÜBİTAK** Proyektləri və **NATO dəstəkli** layihələrə rəhbərlik etmişdir.

2005-2022-ci illərdə Almanya Karlsruhe Universitetində dəvətli professor olaraq elmi araşdırmalar aparmış və 7 dəfə DAAD təqaüdü almışdır. 2022 yılında Almanya Karlsruhe Teknoloji İnstitunda termal mühiddə karbon nanotüp ilə güclendirilən yeni nəsil kompozitlərdən hazırlanan konstruksiyonların burkulma problemi ilə ilgili araştırma yaparak yeni nəticələr əldə etmişdir.

**Əsərlərinə mötəbər xarici jurnallarda 6000-e yakın isdinad verilmişdir.**

Beynəlxalq jurnallarda çap olunan məqalələrinə görə TÜBİTAK'dan 140 dan çox mükafat almışdır.

ADRES:

**PROF. DR. SOFIYEV ABDULLA HEYDƏR OĞLU**

**İstanbul Ticarət Universiteti Insan ve Toplum Bilimləri Fakültəsi, Matematik Bölümü, Sütlüce: Örnektepe Mah. İmrahor Cad. No: 88/2, Beyoğlu 34445 / İstanbul, TÜRKİYƏ**

***Tel:*** **+90 4440413/4142**
***E-Mail:*** ***aavey@ticaret.edu.tr*** və asofiyev@hotmail.com, abdullahavey@gmail.com